UOT 78.03

AYNUR QASIMOVA*

# NƏRİMAN MƏMMƏDOVUN YARADICILIĞININ ÜSLUB XÜSUSİYYƏTLƏRİ

*Məqalədə Görkəmli bəstəkar, professor Nəriman Məmmədov yaradıcılığının, musiqi üslubunun formalaşması və onun üslub xüsusiyyətlərinin ümumiləşdirilməsindən bəhs olunmuşdur. Bəstəkarın instrumental musiqiyə üstünlük verməsi, bu sahədə bütün janrlara müraciət etməsi- baletlər, simfoniyalar, müxtəlif janrlı simfonik əsərlər- poemalar, süitalar, konsertlər, kamera-instrumental əsərlər yaratması, həmçinin vokal- instrumental və kamera-vokal musiqi sahəsində yaranmış "Azərbaycan" oratoriyası və "Naxçıvan" süitası əsərlərdə vətənpərvərlik mövzusunun qabarıq ifadə olunması, orkestr əsərlərində romantizm xüsusiyyətlərinin təzahürü yaradıcılığında əks olunmuşdur. Fortepiano və litavrlar üçün İkinci simfoniya, "Qəlbimin səsi" Dördüncü simfoniyası, "Xocalı şəhidlərinə" Yeddinci simfoniyası, İkinci və Üçüncü Fortepiano konsertləri, "Humay" baleti yaradıcılığının mərhələ əsərləri olub. N.Məmmədovun yaradıcılıq üslubunda muğamla bağlılıq, muğam ənənələrinin son dərəcə fərqli, rəngarəng təcəssümü özünü göstərir. Muğamvari inkişaf prinsipləri, orkestr tembrlərinin uzlaşdırılması və bir çox digər cəhətlər bəstəkarın yaratdığı bütün əsərlərdə öz əksini tapmışdır.*

**Açar sözlər:** *bəstəkar, yaradıcılıq üslubu, milli köklər, musiqi ənənələri, janrlar.*

Görkəmli bəstəkar, Azərbaycan Respublikasının xalq artisti, Naxçıvan Muxtar Respublikasının əməkdar incəsənət xadimi, professor Nəriman Həbib oğlu Məmmədov (1928-2015) özünəməxsus yaradıcılıq dəst-xəttinə malik sənətkar kimi Azərbaycan musiqi mədəniyyətində layiqli yer tutmuşdur. Milli musiqi mədəniyyətini rəngarəng əsərləri və dəyərli tədqiqatları ilə zənginləşdirən Nəriman Məmmədovun yaradıcılığının araşdırılması onun üslub xüsusiyyətlərinin rəngarəngliyini üzə çıxarır.

Bəstəkarın kamera orkestri, fortepiano və litavrlar üçün İkinci simfoniyası, Hüseyn Cavidə həsr olunmuş "Qəlbimin səsi" Dördüncü simfoniyası, "Xocalı şəhidlərinə" Yeddinci simfoniyası, İkinci və Üçüncü Fortepiano konsertləri, "Humay" baleti, "Azərbaycan" oratoriyası, "Naxçıvan" vokal-simfonik süitası onun yaradıcılığında mərhələ əsərlər olub, onun üslub xüsusiyyətlərinin ümumiləşdirilməsinə imkan verir.

N.Məmmədovun yaradıcılığının bütün mərhələlərində diqqəti cəlb edən əsas xüsusiyyətlərdən biri onun əsərlərinin peşəkarlıq səviyyəsi ilə bağlıdır. Bu da bəstəkarın musiqi üslubunun formalaşmasını, bəstəkarlıq yazı texnikasına mükəmməl yiyələnməsini göstərir. Bəstəkara xas olan klassik təfəkkür tərzi və muğam ənənələrinin qovuşması musiqi dilinə emosional dolğunluq aşılayır. Bəstəkarın instrumental musiqiyə üstünlük verməsi, bu sahədə bütün janrlara müraciət etməsi- baletlər, simfoniyalar, müxtəlif janrlı simfonik əsərlər- poemalar, süitalar, konsertlər, kamera-instrumental əsərlər yaratması onun musiqi maraqlarını müəyyən edir. Tədqiqatçı Fatimə Əliyeva N.Məmmədovun konsertlərinə həsr olunmuş məqaləsində yazır: "Nəriman Məmmədovun konsertlərinin lirik-dramatik üslubu özündə klassik və milli formaların qanunauyğunluqlarını orijinal şəkildə uzlaşdırır. Sonata-simfonik silsiləsinin formasına dayaqlanan bəstəkar burada müxtəlif musiqi obrazlarına və səciyyəvi janr tematizminin improvizəyə əsaslanmış muğam inkişaf üslubuna istinad edən kontrast tərkibli kompozisiya yaradır. Bu onu göstərir ki, bəstəkar konsertlərin muğam prinsiplərindən qaynaqlanan formasına yaradıcı şəkildə yanaşır" (2, s. 177).

Bununla belə, vokal musiqi sahəsi də bəstəkarın yaradıcılığında vokal- instrumental və kamera-vokal əsərlərlə təmsil olunur. Burada müxtəlif ifaçılıq tərkiblərindən- kamera orkestri, simfonik orkestr, xalq çalğı alətləri orkestrinin və kamera ansamblının imkanlarından istifadə olunması da mühüm əhəmiyyətə malikdir. Orkestr əsərlərində gərgin dramatizmi, faciəvi

boyaları, fəlsəfi düşüncələri, həmçinin, romantik lirikanı əks etdirən mövzulara rast gəlirik. Vokal-instrumental musiqi sahəsində yaranmış əsərlərdə vətənpərvərlik mövzusunun qabarıq ifadə olunduğunu qeyd etməliyik, lakin bu əsərlərin bir qisminin proqramlı adı bilavasitə Vətən obrazı ilə bağlıdır. Bu kimi əsərlər sırasında N.Məmmədovun "Azərbaycan" oratoriyası və "Naxçıvan" süitası diqqətəlayiqdir.

N.Məmmədovun orkestr əsərlərində romantizm xüsusiyyətlərinin təzahürü ədəbi əsərlərə müraciətində özünü qabarıq nümayiş etdirir. Bu baxımdan Nizaminin, Hüseyn Cavidin, Səməd Vurğunun əsərlərinə müraciət diqqətəlayiqdir. Bu şairlərin əsərlərinin motivlərinin musiqidə konkret şəkildə təcəssümündən daha çox, adı çəkilən şairlərin yaradıcılığına, onların poetik dünyasına münasibətin, bu zəngin mənbədən ilhamlanan bəstəkarın lirik-dramatik düşüncələrinin əks olunduğunu qeyd etməliyik.

Bəstəkarın əsərlərindəki klassik ənənələr özünü aydın təfəkkür və ifadə tərzində, dəqiq ölçülüb-biçilmiş formalarda büruzə verir. N.Məmmədov klassik quruluşa əsaslanaraq, onların imkanları çərçivəsində bədii məzmuna uyğunlaşdırır. Bununla belə, ənənəvi forma daxilində yeniliklərə can atması, simfonik silsilənin quruluşunda, sonata forması daxilində variasiya formasının xüsusiyyətlərindən istifadə etməsi onun musiqi dilinin əsas cəhətlərindən biridir. Digər Azərbaycan bəstəkarları kimi, Nəriman Məmmədovun da yaradıcılığında diqqəti cəlb edən başlıca cəhət milli musiqini – xalq mahnı və rəqslərini, aşıq havalarını, muğamları öz bəstəkarlıq təfəkkürünün süzgəcindən keçirməsi ilə bağlıdır. Əlbəttə ki, hər bir bəstəkarın yaradıcılığı kontekstində bu cəhət müxtəlif yozumda özünü göstərir. Bununla belə bəstəkarların musiqi dilinin özəyinin milli musiqinin ənənəvi intonasiyaları ilə bağlı olması, janrından və həcmindən asılı olmayaraq, demək olar ki, bütün əsərlərdə özünü büruzə verir.

N.Məmmədovun musiqi dilinin daha bir cəhəti musiqi ifadə vasitələrindən – melodiya, harmoniya, faktura, məqam və s. böyük qənaetçilliklə istifadə etməsi ilə bağlıdır. Bu da bəstəkarın məharətini nümayiş etdirən amillərdəndir. Bəstəkar çox zaman kiçik intonasiya özəyinin daxili potensialını məqam, faktura, metroritmika, tembr cəhətdən inkişaf etdirərək, bitkin musiqi lövhəsi yaradır. Bəstəkarın üslubuna xas olan bu cəhətin dərin köklərinin muğam ənənələrilə bağlı olduğunu qeyd etməliyik. Kiçik intonasiya özəyinin tədricən böyüyərək bütöv kompozisiyanın tematizmini təşkil etməsi Azərbaycan muğamları üçün çox səciyyəvidir və N.Məmmədovun əsərlərində qabarıq şəkildə üzə çıxır. Bu da bəstəkarın əsərlərində tematik tamlığını nümayiş etdirir. Musiqi dilindəki xalq musiqisi ilə bağlı qanunauyğunluqların üzə çıxarılması bəstəkarın yaradıcılıq üslubunun milli xüsusiyyətlərinin öyrənilməsi ilə bağlıdır. Bu cəhətdən bəstəkarın yaradıcılığının tədqiqi onun xalq musiqisi ilə əlaqəsindən yaranan musiqi dilinin əsas qanunauyğunluqlarını dərk etməyə imkan verir. Eyni zamanda, bəstəkar yaradıcılığında özünü göstərən müasir musiqinin yeni meylləri də milli köklərlə üzvi surətdə əlaqədardır.

N.Məmmədovun musiqi dilinin diqqətəlayiq xüsusiyyətlərindən biri də orkestrləmə sahəsindəki nailiyyətləri ilə bağlıdır. Orkestr vasitələrindən istifadədə N.Məmmədov müxtəlif tərkibli orkestrlərdən çox səmərəli istifadə edir. O, xüsusi orkestr effektlərinə, qeyri-adi tembrlərə deyil, daha çox klassik ənənələrə arxalanaraq, özünəməxsus yeniliklərini həyata keçirir. Digər musiqi vasitələrində olduğu kimi, orkestr dilində də bəstəkar mövcud ənənələrdən bəhrələnərək, eyni zamanda, hər bir əsərin məzmunu və obrazlar aləminin ifadəsi üçün orkestr vasitələrini seçməsi, tembr-dramaturji imkanlardan istifadə etməsi, əsərlərində alətlərin təbii imkanları çərçivəsində tamamilə yeni səslənmə keyfiyyətinə nail olması da qeyd olunmalıdır. N.Məmmədovun musiqi dilində klassik ənənələr çərçivəsində müasirlik, məzmun yeniliyi, obrazlar aləminin təcəssümü, təravətli orkestrləmə keyfiyyətləri ilə xarakterizə olunur.

N.Məmmədovun çoxcəhətli yaradıcılığında simfonik musiqi, eləcə də müxtəlif tərkibli

orkestrlər üçün yazılmış əsərlər xüsusi yer tutur. Bəstəkar bədii ifadə vasitələri sahəsində axtarışlarını çox zaman orkestr musiqisi sahəsində aparmışdır. Orkestrə dərindən bələd olan N.Məmmədov yaradıcılığının erkən dövründən orkestr musiqisinə xüsusi diqqət yetirmişdir. Bəstəkarın yaradıcılığı çoxcəhətli olduğu kimi, onun orkestr musiqisi də çoxjanrlı və rəngarəngdir. Onun iri həcmli orkestr əsərlərində musiqi üslubunun əsas cəhətləti – klassik forma duyumu və onun muğam inkişaf prinsiplərilə dolğunlaşdırılması, melodik özəklərin variantlı təkrarlanmalarına və variasiyasına əsaslanan işlənmə xüsusiyyətləri, muğama xas olan mərhələli inkişafın simfonik əsərlərdə kompozisiyanın əsas quruluş prinsipinə çevrilməsi, milli musiqinin lad-intonasiya əsaslarının müasir yazı texnikası ilə qovuşdurulması və s. üzə çıxır.

N.Məmmədovun yaradıcılığında şifahi ənənəli musiqi irsinə - muğama, aşıq havalarına, xalq mahnı və rəqslərinə yaradıcı münasibət parlaq sürətdə təzahür edir. Onun musiqisində muğam sənətinin zəngin intonasiya əsasından, aşıq, xalq mahnı və rəqs musiqisindən istifadə üsulları rəngarəngdir.

Bəstəkarın yaradıcılığında başlıca xüsusiyyət obrazın mərhələli açılışına xidmət edən quruluşda muğam kompozisiyasının cizgiləri özünü göstərir. Bəzən əsər bötüvlükdə muğam quruluşuna əsaslanır. Muğam dramaturgiyasının quruluşu, muğandakı intonasiya inkişafı bəstəkar yaradıcılığında yeni keyfiyyətlər kəsb edir. Yaradıcılığında muğam ənənələrinin son dərəcə fərqli, rəngarəng təcəssümü özünü göstərir. Muğam kompozisiyasındakı mürəkkəb, davamlı mərhələli inkişaf prosesi simfonik musiqidə xüsusilə qabarıq təzahür edir. İlkin intonasiya özəyindən bütöv bir simfonik epizodun yaranması və bununla bağlı ekspozisiya mərhələsinin variantlı inkişaf xüsusiyyəti qeyd olunmalıdır.

N.Məmmədovun yaradıcılıq üslubunda muğamla bağlılıq özünü qabarıq şəkildə büruzə verir. Bu cəhəti həm əsərlərin proqramlı adında, həm də musiqi dilinin xüsusiyyətlərində müşahidə edirik. Məsələn, orqan üçün “Muğam və rəng” adlı sonata, xalq çalğı alətləri orkestri üçün “Zərbi muğam” süitası, solistlər və xalq çalğı alətləri orkestri üçün “Dəstgah” vokal- instrumental kompozisiyası bunun bariz nümunəsi ola bilər. Musiqişünas-alim Ramiz Zöhrabovun yazdığı kimi, bəstəkar öz əsərlərində “muğamların ecazkar səslənməsini bacarıqla yarada bilmişdir. Lakin müəllif heç zaman muğamlarımızdan sitat kimi istifadə etməmiş, əksinə, muğamlara novatorcasında yanaşmış, müxtəlif səciyyəli muğamları bədii cəhətdən bir-birilə gözəl uzlaşdıra bilmişdir”( 1, s.100).

Bəstəkarın muğama yaradıcı münasibətindən danışarkən, musiqişünas Rəna Fərhadova belə bir xüsusiyyəti də qeyd edir ki, o, muğam fraqmentlərini, hisslərini təkrar etmir, sitat gətirmir, bir ştrixlə, bir ritmik fiqurla, bir səsin dəyişdirilməsi ilə bir məqamdan digərinə yönəlmə yaradır. Belə məqam dəyişkənliyi, həm də məqamların qovuşdurulması ilə nəticələnir. Eyni zamanda, bu , qeyri-adi intonasiya təravəti əmələ gətirir (2, s.21). Muğamvari inkişaf prinsipləri, orkestr tembrlərinin uzlaşdırılması və bir çox digər cəhətlər bəstəkarın yaratdığı bütün əsərlərdə özünü büruzə verir. Xalq və şifahi ənənəli professional musiqi qanunlarına əsaslanan bəstəkar onları klassik musiqi ifadə vasitələrilə qovuşaraq, öz üslubunu yaratmışdır.

Beləliklə, Nəriman Məmmədovun yaradıcılığında musiqi dilinin tədqiqi janr xüsusiyyətləri, mövzu dairəsi, forma və məzmunun əlaqələri, musiqi ifadə vasitələrinin- melodika, məqam, harmoniya, ritmika, orkestrləşdirmə və s. cəhətlərin araşdırılması, xalq və klassik musiqidən bəhrələnmə və bunun musiqi dilinə təsiri məsələləri baxımından aparılması, bəstəkarın yaradıcılığının ətraflı səciyyələndirilməsinə imkan verir.

**ƏDƏBİYYAT**

1.Əliyeva F. Nəriman Məmmədovun fortepiano və simfonik orkestr üçün konsertlərinin üslub xüsusiyyətləri. Bakı, "Musiqi dünyası" jur., № 1-2 (35).
2.Фархадова Р. Нариман Мамедов. Баку: Ишыг, 1982, 48 с.
3.Zöhrabov R. Bəstəkarlarımızın portreti. Bakı: Gənclik, 1997, 122 s.

***Naxçıvan Dövlət Universitetinin müəllimi**
***E-mail: aynurqasimovaa1977@gmail.com***

**Aynur Gasimova**

**STYLE FEATURES OF NARIMAN MAMMADOV'S CREATIVITY**

The article discusses the formation of the work of the famous composer, Professor Nariman Mammadov, his musical style and the generalization of its stylistic features. The composer's preference for instrumental music, his appeal to all genres in this field - ballets, symphonies, symphonic works of various genres - poems, suites, concerts, chamber-instrumental works, as well as the "Azerbaijan" oratorio in the field of vocal-instrumental and chamber-vocal music and The "Nakhchivan" suite is reflected in the works, the expressive theme of patriotism in the works, the manifestation of the features of romanticism in the orchestral works. There were the Second Symphony for piano and lyre, the Fourth Symphony "Voice of my heart", the Seventh Symphony "To the martyrs of Khojaly", the Second and Third Piano concerts, stage works of the ballet "Humay". N.Mammadov's creative style is connected with mugham, a very different, colorful embodiment of mugham traditions. The principles of mugam development, harmonization of orchestral timbres and many other aspects are reflected in all the works created by the composer.

**Keywords:** *composer, creative style, national roots, musical traditions, genres.*

**Айнур Гасимова**

**СТИЛЬНЫЕ ОСОБЕННОСТИ В ТВОРЧЕСТВЕ НАРИМАНА МАМЕДОВА**

В статье рассматривается становление творчества известного композитора, профессора Наримана Мамедова, его музыкальный стиль и обобщение его стилистических особенностей. Пристрастие композитора к инструментальной музыке, его обращение ко всем жанрам в этой области - балеты, симфонии, симфонические произведения разных жанров - стихи, сюиты, концерты, камерно-инструментальные произведения, а также оратория "Азербайджан" в области вокально-инструментальной и камерно-вокальной музыки и др. Сюита "Нахчыван" отражена в произведениях, выразительная тема патриотизма в произведениях, проявление черт романтизма в оркестровых произведениях. Это Вторая симфония для фортепиано и литургии, Четвертая симфония "Голос моего сердца", Седьмая симфония "Ходжалинским мученикам", Второй и Третий фортепианные концерты, сце-

нические произведения балета "Хумай". Творческий стиль Н.Мамедова связан с мугамом - совершенно иным, ярким воплощением традиций мугама. Принципы развития мугама, гармонизации оркестровых тембров и многие другие аспекты отражены во всех произведениях, созданных композитором.

**Ключевые слова:** *композитор, творческий стиль, национальные корни, музыкальные традиции, жанры.*

*(AMEA-nın müxbir züvü Ərtegin Salamzadə tərəfindən təqdim edilmişdir)*

**Daxilolma: İlkin variant: 07.01.2021**
**Son variant: 19.02.2021**